AZƏRBAYCAN VETERANI
Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı
23-24 (141-142) 30 dekabr 2019-cu il
İctimai-siyasi qəzet

# İlham Əliyev "Şahdağ" Turizm Mərkəzində görülən işlərlə tanış olub

Dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Şahdağ" Turizm Mərkəzində görülən işlərlə tanış olublar.

"Şahdağ" Turizm Mərkəzinə gələn dövlətimizin başçısı burada xizək sürdü.

Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə yerləşən "Şahdağ" Turizm Mərkəzinin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan "Şahdağ" Turizm Mərkəzi oxşar istirahət məkanlarından bənzərsizliyi ilə fərqlənir və ilboyu fəaliyyət göstərmək iqtidarındadır. Bu layihənin reallaşdırılması Azərbaycanda dağ-xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır.

Son illərdə burada xeyli iş görülüb. Dövlətimizin başçısı ən hündür nöqtədə tikilən "Shahdag 2351" kafesinin qarşısında yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, burada baxış meydançası yaradılıb, ərazidə ehtiyat helikopter meydançası inşa edilib, hündürlüyü 30 metr olan bayraq dirəyi quraşdırılıb.

Prezident İlham Əliyev yerli və xarici turistlərlə söhbət etdi. Turistlər "Şahdağ" Turizm Mərkəzində yaradılan şəraitdən razılıqlarını bildirdilər.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, "Şahdağ" Turizm Mərkəzinin "Main Plaza" adlanan ərazisində 2 zalı olan yeni kinoteatr inşa edilib. Zalların biri 36, digəri 72 yerlikdir. Buraya gələn yerli və xarici turistlərin xizək sürdükdən sonrakı asudə vaxtlarının səmərəli təşkilində, onların müasir kino sənayesinin yeni məhsulları ilə tanış olmasında kinoteatr mühüm rol oynayacaq. Kinoteatrın Yeni il bayramında turistlərin istifadəsinə verilməsi planlaşdırılır. Bundan əlavə, dördxətli boulinq, uşaq boulinqi, bilyard və avtomat oyunlardan ibarət oyun zalı yaradılıb, "Music Hall" inşa edilib.

"Şahdağ" Turizm Mərkəzində görülən işləri yüksək qiymətləndirən dövlətimizin başçısı dedi ki, bura indi dünya səviyyəli xizək kurortudur. Burada həm peşəkarlar, həm də yeni başlayanlar üçün çox rahat enişlər var. Gələcəkdə kompleksin genişləndirilməsi ilə bağlı əlavə planlar olacaq.

Prezident İlham Əliyev "Şahdağ" Turizm Mərkəzinin üçüncü mərhələsi üzrə layihə işləri ilə bağlı tapşırıqlarını verdi.



Dövlətimizin başçısı və xanımı turistlərlə, kompleksin işçiləri ilə xatirə şəkilləri çəkdirdilər.

Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan "Şahdağ" Turizm Mərkəzində inşa edilən otellər bu istirahət məkanına marağı daha da artırır. Qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu otellərdə yaradılan şərait bir daha təsdiqləyir ki, bu gün ölkəmizdə turizm sektorunun inkişafına xüsusi fikir verilir. Paytaxtla yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına diqqətin göstəricisidir. Bu çərçivədə "Şahdağ" Turizm Mərkəzində inşa edilən otellərdə təqdim edilən yüksək şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını bir daha təsdiqləyir və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını göstərir. Ölkəmizdə qeyri-neft sektoruna mühüm töhfə olan "Şahdağ" Turizm Kompleksi Azərbaycan tarixində ilk dağ-xizək kurortudur. Bu möhtəşəm obyektin inşasını daim diqqət mərkəzində saxlayan dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə əraziyə gələrək tikintinin gedişi ilə tanış olub, bir neçə obyektin və otelin açılışında iştirak ediblər.

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni iliniz mübarək



***31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Respublika Veteranlar Təşkilatının veteranlara təbriki***

Əziz və hörmətli veteranlar!

Sizi qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

1991-ci ilin 16 dekabr tarixində Ulu öndər Heydər Əliyev tərəfindən elan edilən Dünya Azərbaycanlılarının Həmrəylik Gününü ən yüksək səviyyədə bayram kimi qeyd etmək xalqımızın ictimai fikir tarixində əlamətdar bir hadisəyə çevrilmişdir. Hər birimiz üçün əziz və doğma olan bayram dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın birliyinin təcəssümüdür.

2019-cu il biz veteranlar üçün yaddaqalan oldu. Həyata keçirdiyimiz tədbirlər, gənclərlə görüşlər, yubileylər xalqımız tərəfindən rəğbətlə qarşılandı. Bu baxımdan yeni ildə Qələbənin 75 illiyinin yüksək səviyyədə qeyd olunması daha uğurlu olacaqdır.

Azərbaycan bu gün Ümummilli Liderimizin layiqli davamçısı, möhtərəm Prezident-Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müstəqillik və inkişaf yolunda inamla irəliləyir. Bu istiqamətdə bizim əsas vəzifəmiz müstəqilliyimizi qorumaq, ərazi bütövlüyümüzü tez bir zamanda bərpa etmək, respublikamızın hərtərəfli inkişafına töhfələr verməkdir. Bunun üçün biz veteranlar bütün var qüvvəmizi səfərbər etməli, gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsi, onlara vətən, xalq sevgisini aşılamaq kimi ən ümdə vəzifəmizin öhdəsindən gəlməliyik. Əminliklə deyə bilərik ki, biz veteranlar möhtərəm Prezidentimizin ətrafında daha da sıx birləşərək qarşıdan gələn ildə də fəaliyyətimizi davam etdirəcək, respublikanın inkişafı naminə əlimizdən gələni əsirgəməyəcək, üzərimizə düşən işin öhdəsindən layiqincə gələrək, Vətənimiz Azərbaycanı etibarlı əllərdə saxlayan gəncliyi yetişdirməyə davam edəcəyik.

Yeni iliniz mübarək! Hər birinizə və ailənizə möhkəm cansağlığı, ailə səadəti, xoşbəxt həyat, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Tofiq Ağahüseynov*
*general-polkovnik,*
*Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri*

2020

# Polkovnik Cəlil Xəlilovun Milli Məclisə namizədliyi irəli sürülüb



Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının IX plenumunda Cəlil Xəlilovun Milli Məclisə namizədliyi irəli sürülüb və bu təklif plenum iştirakçıları tərəfindən yekdilliklə dəstəklənib.

Plenum iştirakçıları hesab edib ki, ölkə ictimai-siyasi həyatında aktiv iştirak edən, peşəkar hərbçi və tanınmış alim Cəlil Xəlilovun parlamentdə təmsilçiliyi, xalqın, eləcə də müharibə və əmək veteranlarının arzu və istəklərinin parlamentdə dolğun şəkildə əks edilməsi baxımından faydalı ola bilər.

Məlumat üçün qeyd edək ki, Cəlil Xəlilov yalnız Azərbaycanda deyil, MDB məkanında tanınan və böyük nüfuz sahibi olan ictimai xadimdir və onun namizədliyi birmənalı şəkildə cəmiyyətin bütün təbəqələri tərəfindən dəstəklənməkdədir.

# Gənc nəslin tərbiyəsində Heydər Əliyev məktəbi

Həqiqəti müəyyən ambisiyalarına görə, maraq və faktları mənafelərinə uyğun təhrif edənlərin, obyektiv faktları məqsədli şəkildə saxtalaşdıranların cəhdləri labüd iflasa, zamana ehtiyacı olan məğlubiyyətə məhkumdur. Əsrlərin təcrübəsi birmənalı şəkildə təsdiq edib ki, insana xas subyektivizmdən yüksəkdə durmaqla yeganə ədalətli hakim olan tarix həqiqətin təhrifi, faktların saxtalaşdırılması ilə heç vaxt barışmayıbdır. Həqiqətin bütün çılpaqlığı ilə gec-tez üzə çıxacağını yaxşı bilənlər məhz buna görə sözlərinə və əməllərinə məsuliyyətlə yanaşaraq, əməllərini sözlərinin, sözlərini isə əməllərinin təsdiq etməsinə xüsusi diqqət yetirirlər.

Mənalı ömrünü sözü və əməlinin bütövlüyü ilə yaşayan və elə buna görə də adı tarixə sağlığından əbədi həkk olunan dahi şəxsiyyətlərdən biri Ulu Öndər Heydər Əliyevdir. Heydər Əliyev həqiqəti bütün təhrif və saxtalaşdırma cəhdlərini puça çıxardıb. Onun qüdrətinin əvəzsizliyinin təbliğə ehtiyacı qalmayıb. Heydər Əliyev həqiqəti yozulan yox, məhz görünən həqiqətdir, zamanın sınağından çıxdığı üçün əbədiliyinə tarix təminat veribdir.

Heydər Əliyev ömrü, fəaliyyəti elə mənalı keçib və XX əsrdə etnik mövcudluğumuzun qorunub saxlanılması və milli azadlığımızın qazanılması tarixini məqsədyönlü fəaliyyəti və əməlləri ilə yazan bu böyük insanın həyatının hər günü, hər ayı, hər ili həyat dərsliyidir, təcrübə məktəbidir. Talenin bəxş etdiyi bu milli sərvəti hərtərəfli və əsaslı şəkildə öyrənməklə biz gələcəyimizin daimi və şəriksiz sahibi ola bilərik.

Vətənini, xalqını sevən, milli ideallara xidməti özünün ən ümdə vətəndaşlıq vəzifəsi və borcu sayan hər bir şəxs Heydər Əliyevi Prezident - dövlət başçısı kimi, Ali Baş Komandan kimi, ümummilli lider kimi, diplomat kimi, siyasi xadim kimi, iqtisadçı kimi, sıravi vətəndaş kimi, nəhayət, ailə başçısı kimi öyrənməlidir; dövlət quruculuğunu və dövləti idarəetməni, müharibə vəziyyətində sərkərdəliklə incə diplomatiyanı birləşdirməyi, milli ənənəsi olmadığı halda yeni ictimai-siyasi, sosial-iqtisadi münasibətlər dövründə cəmiyyətin demokratikləşdirilməsini, iqtisadi potensialın gücləndirilməsini əlaqələndirməyi, Vətənə - xalqa təmənnasız xidməti, əsildən-nəsildən və köklü ocaqdan gələn ənənə ilə nümunəvi ailə yaratmağı öyrənməlidir.

### *Heydər Əliyev Prezident - dövlət xadimi kimi*

Azərbaycan prezidentini tarixi dövlətçilik ənənəsi olan bir çox ölkə rəhbərlərindən fərqləndirən əsas cəhət milli azadlıq hərəkatını formalaşdırmaq, tənzimləməklə respublikanı əsarətdən qurtarması və müstəqil dövlət qurmasıdır. Heç şübhəsiz, qurulu dövləti idarə etmək yeni bir dövlət qurараq onu idarə etməkdən qat-qat asandır. Tale isə sanki Heyder Əliyevi işıqlı dünyaya Azərbaycan xalqının qarşısına çıxan bütün problemləri həll etmək üçün gətiribdir. Prezident və dövlət xadimi kimi Heydər Əliyevin fəaliyyətini şərti olaraq iki dövrə ayırmaq olar:

Milli müstəqilliyə qədər

Milli müstəqillikdən sonrakı dövr.

Hər iki dövr üçün xarakterik cəhət Heydər Əliyevin özü üçün həyatının mənası kimi seçdiyi müqəddəs bir amala - Azərbaycana xidmət amalına sonsuz sədaqətidir. Amalsa dəyişməyib, dəyişən amalı gerçəkləşdirmə yolları və vasitələridir. Onun fəaliyyətinin birinci dövründə əsas məqsəd milli ruhun şüurlu oyanışına nail olmaqla milli potensialı qoruyub saxlamaq və gələcək müstəqil Azərbaycan üçün sosial-iqtisadi, mənəvi- psixoloji, hərbi və elmi-mədəni baza yaratmaq idisə, ikinci dövrdə artıq müstəqil, suveren dövlətin azadlığına dönməz xarekter vermək, demokratik, dünyəvi, hüquqi dövlət qurmaq, nizami ordu yaratmaq, iqqisadiyyatı, mədəni-elmi həyatı dirçəltmək, sosial məsələləri nizamlamaq əsas vəzifələr idi.

Tanrı bütün bəndələrinə qarşı mərhəmətlidir, amma onun sevgisini qazanmaq hər bəndəyə nəsib olmur. Bəli, Heydər Əliyev tanrının sevdiyi bəndədir. Hər əsgər general ola bilməz, amma pis əsgər odur ki, general olmaq istəmir. Bizim hər birimiz, o cümlədən sərhəddə torpaq keşiyini çəkən sıravi bir əsgər də məhz Ulu Öndər Heydər Əliyev kimi şəxsiyyət olmağa cəhd göstərməlidir. Cəmiyyətdə belə bir cəhdin ənənəyə çevrilməsi əslində əldə edilən uğurları qoruyub saxlamağa və daha da inkişaf etdirməyə qadir vətəndaşların yetişməsinə etibarlı təminat ola bilər.

### *Heydər Əliyev Ali Baş Komandan kimi*

Azərbaycanda müasir tipli ordunun həm nəzəri, həm də praktiki baxımdan yaradılması məhz Heydər Əliyevin tarixi xidmətidir. hələ sovet dövründə milli hərbçi kadrların yetişdirilməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev C.Naxçıvanski adına hərbi məktəbin açılmasına nail oldu. Əhali, xüsusən gənclər arasında hərb sənətinə neqativ münasibəti kökündən dəyişdirdi, təhlükəsizlik və hüquq-mühafizə orqanlarının milliləşdirilməsi prosesinə başladı. Azərbaycanlı hərbçilərin çoxsaylı etirafları bir daha sübut edir ki, məhz Heydər Əliyev hakimiyyətə gələndən sonra sovet rejimində azərbaycanlı hərbçilərə yüksək rütbələr və məsul vəzifələr verilməyə başlanıldı. Keçmiş SSRİ-nin harasında xidmət etməsindən asılı olmayaraq, hər bir azərbaycanlı əsgər, xüsusən də zabit Heydər Əliyevin simasında özünün karyerasına, bacarıq və istedadının qiymətləndirilməsinə qarant görürdü. Elə o vaxtdan hərbçilər arasında Heydər Əliyev ordu quruculuğunu peşəkarcasına bilən, ən başlıcası isə milli zabit kadrların yeganə qayğıkeşi və himayədarı imicini qazanmışdı.

Heydər Əliyevin xarakterini, ideologiyasını, taktikasını və strategiyasını hələ 60-cı illərdən formalaşdırmağa başladığı milli azadlıq hərəkatı qələbə çalandan sonra səriştəsiz adamların rəhbərliyə gəlişi ilə sistematik, məqsədyönlü möhtəşəm dövlət və ordu quruculuğunda anarxiyaya rəvac verildi. Nəticədə cəbhəyə toplaşmalı olan silahlar təsadüfi əllərə düşdü, Bakıda cəbhə xəttindən daha çox və daha sürəkli atəş səsləri eşidilməyə başladı. Başıpozuq reket dəstələri hərbi birləşmələr adı altında "siyasi liderlərin sözlə, əməli işlə gerçəkləşdirə bilmədikləri ambisiyalarını zorla rellaşdırmaq istəyirdilər.

Bir çox müxalifət liderləri silahlı dəstələrinin əhatəsində siyasi imic qazanmaq üçün canfəşanlıqla "Vətəndən" danışdıqları vaxtlar Heydər Əliyev danışmaq əvəzinə əməli iş görürdü - Milli Ordunu yaradırdı. Dəmir intizamlı, müasir texnika ilə təchiz edilmiş, həqiqi peşəkarlarla gücləndirilmiş milli ordunun varlığı ilk növbədə özünün xarici havadarlarına arxalanan və "qələbə eyforiyası" yaşayan erməni işğalçılarını atəşkəslə razılaşmağa vadar etdi. Ordunun sosial-məişət qayğıları, əsgər və zabit heyətinin döyüş hazırlığının təkmilləşdirilərək yüksəldilməsi, siyasi-ideoloji və tərbiyəvi işin müstəqil respublikamızın mənafe və marağına uyğun qurulması Ulu Öndərin diqqət mərkəzində idi.

İnamsız əsgərin əlində silah əslində ya dəmir parçasıdır, ya da hara tuşlanması dəqiq bilinməyən ölüm mənbəyidir. Heydər Əliyev şərəfli xilaskarlıq missiyasına başlayanda müqəddəs amal naminə silaha sarılan ən vətənpərvər gənclər də az müddətə bütün xalq kimi inamını itirmək təhlükəsi ilə qarşılaşmışdı. Siyasi "xadimlərin", "cəfakeş millət liderlərinin" sayı artdıqca çaşqınlıq da güclənirdi, hərbi-siyasi vəziyyət murəkkəbləşdikcə, torpaqlarımız, şəhər və kəndlərimiz əldən getdikcə xalqın, o cümlədən silahlı vətənpərvər gənclərin əsl sərkərdəyə ehtiyacı artırdı. Vətənə və xalqa sərkərdə lazım idi. Müharibəyə cəlb olunmuş Azərbaycanda isə qanlı döyüşləri, ərazi işğalını, azğın düşməni nizami ordunun gücünə dayandırmaq poetik nitqlər söyləməkdən, gəlişi gözəl vədlər verməkdən qat-qat çətin idi və nəticəsi konkret əməli işdə görünən fədakarlıq tələb edirdi. Bu fədakarlığı ilk dəfə məhz Ali Baş Komandan kimi Heydər Əliyev öhdəsinə götürən gündən xalq həsrətlə gözlədiyi sərkərdəni tapdığını başa düşdü. Bu gün Heydər Əliyev Silahlı Qüvvələr, o cümlədən milli təhlükəsizlik orqanının əməkdaşları, Sərhəd Qoşunlarının şəxsi heyəti üçün qanuni yolla seçilmiş ümumixalq sevgisi qazanmış xilaskar sərkərdədir.

### *Heydər Əliyev ümummilli lider kimi*

Heydər Əliyevin fitri istedada malik fenomenal şəxsiyyət olduğu hətta dünya birliyində də təsdiq və etiraf edilmiş həqiqətdir. Onu sələflərindən və müasirlərindən fərqləndirən başlıca cəhət ilk növbədə xalqa istinad etməsi və açıq fəaliyyət göstərməsidir. Heydər Əliyev bəlkə də dünya miqyasında yeganə şəxsiyyətdir ki, xalqın yekdil istəyi və arzusu ilə hakimiyyətə gəldi. Heydər Əliyev bəlkə də yeganə şəxsiyyətdir ki, faktiki Prezidentliyini rəsmiləşdirərkən, xalqın inamını, etibarını əsas götürdü. Bununla da Heydər Əliyevin yalnız prezidentliyi deyil, ilk növbədə ümummilli liderliyi təsdiq olundu.

Xalq Heydər Əliyevə sonsuz inam bəslədiyi kimi, o da xalqa inanırdı, ən başlıcası bu inamını gizlətməyə çalışmır. Bu cəhət onun, başqa bir özünəməxsusluğu ilə bağlıdır. Heydər Əliyev açıq fəaliyyət göstərən şəxsiyyətdir. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişinə cəhdlər vaxtı Heydər Əliyev ilk növbədə xalqa müraciət etdi, bəla, xəyanət haqqında xalqa açıq, dolğun məlumat verdi, ən ağır məqamda da Bakını, ona inanan xalqını tərk etmədi. Onun səmimiyyəti, cəsarəti, obyektivliyi gecənin yarısı olmasına baxmayaraq, bütün xalqı ayağa qaldırdı. Xalq, o cümlədən Ordu yalnız qanuni Prezidentinin səsinə səs vermədi, eyni zamanda tarixində ilk dəfə tapdığı xilaskarının - liderinin müdafiəsinə qalxdı. Heydər Əliyev ümummilli lider olduğunu əməli işlə təsdiq edir. O, bu fəxri və şərəfli ada Prezident olandan sonra yox, əksinə Prezident olmamışdan əvvəl layiq görülüb. SSRİ dövründə respublikanın rəhbəri işləyib, amma milli maraqları dövlət maraqlarından üstün tutub; zahirən kommunist ideologiyasının təbliğatçısı olub, amma əslində milli təhlükəsizliyin tərkib hissəsi olan milli ideologiyanın formalaşaraq təsiredici gücünün qorulub saxlanmasına çalışıbdır. Naxçıvan Ali Məclisinin sədri işləyərkən Azərbaycan rəhbərliyinin görmədi olduğu amma görmədiyi işləri həyata keçirib. Bütün dövrlərdə Heydər Əliyev sadəcə olaraq vəzifə borcunu yerinə yetirməyib, tarixi xilaskarlıq missiyası kimi ona etibar olunmuş ümummilli liderliyini şərəflə doğruldubdur.

Heydər Əliyev, diplomat, siyasi xadim, iqtisadçı, elmsənət himayədarı, sıravi vətəndaş kimi də nümunəvi təcrübə məktəbi yaradıbdır. BMT qərargahının qarşısından bayrağın asılması hələ respublikamızın dünyada tanınması demək deyildi. Dünya diplomatiyası tarixində Heydər Əliyev bəlkə də yeganə ölkə başçısıdır ki, əlində xəritə ölkənin coğrafiyasını əyani nümayiş etdirməklə informasiya blokadasını dağıtmağı, düşmən tərəfin saxtakarlığını üzə çıxarmağı özünə rəva bilibdir. Bu qeyri-adi faktın özü də Heydər Əliyev məktəbinin əvəzsiz dərsidir: peşəkarlığı, istedadı vətənpərvərlik tamamlamalıdır.

1993-cü ilə qədər Azərbaycanda vahid xarici siyasət kursu yox idi. Xarici ölkələrlə əlaqələrdə emosiyalar, utopik nəzəri mülahizələr mühüm rol oynayırdı. Heydər Əliyev isə xarici siyasət konsepsiyasını beynəlxalq normalara əsasən qurdu, prioritet istiqamətləri müəyyənləşdirərkən yaxın və uzaq strateji hədəfləri, dövlət və milli maraqları əsas götürdü. Diplomatik əlaqələrdə iqtisadi amilə xüsusi diqqət yetirməsinin sayəsində respublikamıza investisiya qoyuluşu geniş vüsət aldı, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində, daxildəki iqtisadi-sosial durumun stabilliyində marağı olan ölkələrin sayının artmasına nail oldu. Lissabon sammitinin nəticəsi əslində Heydər Əliyev diplomatiyasının tarixi qələbəsidir. Mən əminəm ki, gələcəkdə dünya diplomatları və siyasətçiləri Lissabon sammitini çıxılmaz vəziyyətdən maksimum fayda ilə çıxmağı bacaran Heydər Əliyev qələbəsi kimi ciddi şəkildə öyrənəcəklər . Heydər Əliyev təcrübəsi tükənməz həyat məktəbidir. Bu məktəbi öyrənərək başa vurmaq mümkün olmadığı üçün mən sonda bir məsələyə toxunmaq istəyirəm. Heydər Əliyev ata kimi də hər bir vətəndaşa örnəkdir. Uzun illər hakimiyyətinin ən yüksək pilləsində dayanan külli-ixtiyar sahibi kimi o, yeganə oğluna hər cür şərait və təminat yarada bilərdi. Heydər Əliyev oğlu, İlham Əliyevi gərgin mübarizələrlə dolu siyasət meydanına tək buraxdı və ən ağır sınaqdan çıxmağı - özüntəsdiqə özünün nail olmasını ona ömür yolu olaraq müəyyənləşdirdi. Hazırda İlham Əliyev siyasi arenada, beynəlxalq aləmdə qəti addımlarını atır, artıq özünü peşəkar və kamil siyasətçi, iqtisadçı, mahir diplomat, kimi tanıdaraq hörmət qazana bilibdir. İlham Əliyevin uğurları isə yalnız ata Heydər Əliyevin deyil, eyni zamanda prezident, ümummilli lider Heydər Əliyevin həyat təcrübəsinin və məktəbinin təsdiqidir. Biz belə bir milli sərvətimiz olduğu üçün xoşbəxtik. Biz bu sərvətin qədrini bilərək incəliyinə qədər öyrənib mənimsəsək daha böyük nailiyyətlər qazana bilərik.

***Cəlil Xəlilov***
***Republika Veteranlar Təşkilatının sədr müavini, polkovnik***

AZƏRBAYCAN VETERANI
23-24 (141-142) 30 dekabr 2019-cu il


# Hər bir veteran bizim üçün əziz və qiymətlidir

## Respublika Veteranlar Təşkilatının əməkdaşlarının İkinci Dünya müharibəsinin qocaman veteranları ilə səyyar görüşləri

Möhtərəm Prezidentimiz-Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə sosial istiqamətdə həyata keçirilən islahatlar hər bir azərbaycanlının eləcə də, veteranlarımızın sosial vəziyyətini yaxşılaşdırmışdır. Məhz Prezident İlham Əliyev başda olmaqla bütün dövlət orqanlarının rəhbərliyi və əməkdaşları veteranlara hər cür diqqət və qayğı göstərirlər. MDB ölkələri daxilində Azərbaycan II Dünya müharibəsi veteranlarına xüsusi diqqət yetirilməsi ilə seçilir.

Bu gün əminliklə deyə bilərik ki, zamanın qanlı-qadalı sınaqlarından alnı açıq çıxmış veteranlarımız gənclərimiz üçün örnəkdir. Onların şərəfli həyat və fəaliyyətləri hər birimiz üçün nümunədir.







Azərbaycanda veteran hərəkatının bayraqdarı olan Respublika Veteranlar Təşkilatı fəaliyyətini günü-gündən daha da artırır. Respublika Veteranlar Təşkilatı ölkənin ictimai-siyasi həyatında fəallığı ilə seçilməklə yanaşı veteranların yanında dayanır, onların maddi-sosial vəziyyətinin yaxşılaşdırılması üçün lazımı tədbirləri həyata keçirir, müvafiq dövlət qrumları ilə yaxından əməkdaşlıq edir, əlaqələrini genişləndirir.

Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun müvafiq tapşırığına əsasən Təşkilatın əməkdaşları İkinci Dünya müharibəsinin veteranları ilə görüşür, onları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, 2019-cu Yeni İl və Qələbənin 75 illiyi münasibəti ilə təbrik edirlər. Onlara maddi yardım və hədiyyələr təqdim olunur. Bu istiqamətdə həyata keçirilən silsilə tədbirlər həm Bakıda, həm də Respublikanın digər bölgələrində uğurla davam etdirilir.









Bakı şəhərinin bütün rayonlarında, eləcə də, Quba, Qusar, Xaçmaz və Siyəzən rayonlarından olan veteranlarla evlərində görüşlər keçirilmişdir. Veteranların həyat-məişət şəraiti ilə tanış olan nümayəndə heyəti onların problemlərinin həll edilməsi istiqamətində müvafiq qeydlər götürürlər. Səmimi söhbət əsnasında keçdikləri şərəfi döyüş yolu və xatirələri dinlənilir. Qəhrəman veteranlarımızın maraqlı söhbətləri, qonaqpərvərliyi insanda mübarizliyi, gələcəyə inamı daha da atırır. Şirin, duzlu-məzəli əhvalatlar sanki insanı keçmişə qaytarır, insan əzmini nümayiş etdirir.

Sevindirici haldır ki, veteranlar hər zaman olduğu kimi, bu görüşlərdə də dövlətçiliyimizə sadiq olduqlarını, gənc nəslin vətənpərvər yetişdirilməsində əllərindən gələnləri əsirgəməyəcəklərini dilə gətirirlər, Respublika Veteranlar Təşkilatının və rayon Veteran Təşkilatlarının fəaliyyətlərini yüksək qiymətləndirdilər. Onlar həm ölkəmizin Prezidenti cənab İlham Əliyevə, həm də Respublika Veteranlar Təşkilatının rəhbərliyinə göstərilən yüksək diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirirlər.









Qeyd edək ki, Respublikamızın bütün rayonlarında veteranlarla keçirilən görüşlər əsasında Qələbənin 75 illiyi münasibətilə xüsusi buraxılış hazırlanacaq, mətbuat vasitələrində geniş işıqlandırılacaq.

# Dərbənddə Azərbaycan generalına abidə qoyulub

Dekabrın 9-da Rusiyanın Dağıstan Respublikasının Dərbənd şəhərində Azərbaycanın görkəmli hərbi və dövlət xadimi, artilleriya general-leytenantı, keçmiş rabitə naziri Hüseyn Rəsulbəyovun büstünün açılış mərasimi keçirilib.

Açılış mərasimində Dağıstanın və Azərbaycanın rəsmi şəxsləri, Quba, Qusar və Xaçmaz rayonlarının icra hakimiyyətlərinin başçıları, Dərbənd şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.





Tədbirdə Dərbənd şəhər dairəsinin rəhbəri Xızrı Abakarov, Dağıstan Xalq Məclisinin sədri Xızrı Şıxsəidov, Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin vitse-spikeri, Ələt azad iqtisadi zonasının müvəqqəti idarəetmə qurumunun sədri Valeh Ələsgərov, Azərbaycan Prezidentinin Xüsusi Tibb Xidmətinin rəisi, akademik Cəmil Əliyev, Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xanbabayev, diyarşünas alim, Dərbənd şəhərinin fəxri vətəndaşı Hüseynbala Hüseynov çıxış edərək, abidənin açılışını Dağıstan üçün unudulmaz hadisə adlandırıblar.

Bildirilib ki, dərbəndlilər hərb tarixində parlaq iz qoymuş, II Dünya müharibəsi zamanı Odessa, Kerç, Sevastopol və Şimali Qafqazın müdafiəsində iştirak etmiş cəsarətli və qətiyyətli zabit olan Hüseyn Rəsulbəyovla fəxr edirlər, görkəmli dövlət və hərb xadiminin xidmətlərini bu gün də ehtiramla yad edirlər. Hava hücumundan müdafiə dairəsinin zenit-artilleriya qoşunlarının komandanı vəzifəsinədək yüksəlmiş azərbaycanlı general-leytenant Hüseyn Rəsulbəyovun tarixi xidmətləri xatırlanıb, həyat və fəaliyyəti barədə ətraflı söhbət açılıb. Bildirilib ki, peşəkar hərbçi kadrların yetişdirilməsində mühüm xidmətləri olan Hüseyn Rəsulbəyovun şərəfli ömür yolu zabit və əsgərlər üçün gözəl nümunədir. Bu baxımdan onun həyat yolu, fəaliyyəti dərindən öyrənilməli, gənclər arasında geniş təbliğ olunmalıdır.

Dağıstan və Azərbaycan xalqlarının qədim tarixə malik dostluq əlaqələrindən danışan natiqlər ümummilli lider Heydər Əliyevin bu əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərini, hazırda Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin ölkələrimiz və xalqlarımız arasındakı dostluq münasibətlərinin inkişafına xüsusi önəm verdiklərini vurğulayıblar.

Akademik Cəmil Əliyev Azərbaycan Prezidenti İlham Əliyevə və Rusiya Prezidenti Vladimir Putinə müharibə iştirakçılarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində səylərinə görə mərasim iştirakçıları adından minnətdarlığını bildirib: "Bu gün yalnız bizim ailəmiz üçün deyil, iki qardaş xalqın həyatında əlamətdar hadisə baş verir. Əziz



dərbəndlilər, Hüseyn Rəsulbəyovun xatirəsinə göstərdiyiniz yüksək ehtirama görə hamınıza minnətdaram".

Daha sonra tədbir iştirakçılarının alqış sədaları altında büstün üzərindəki örtük götürülüb, abidənin önünə əklillər qoyulub, gül dəstələri düzülüb.

Xatırladaq ki, Azərbaycanın hərb tarixində özünəməxsus yeri olan Hüseyn Rəsulbəyov 1917-ci ildə Dərbənddə doğulub. F.Dzerjinski adına Qızıl Ordu Artilleriya Akademiyasını bitirən, sovet dönəmində hava hücumundan müdafiə dairəsinin zenit-artilleriya qoşunlarının komandanı vəzifəsinə yüksələn ilk və yeganə azərbaycanlı olub. 1975-ci ildə Azərbaycanın rabitə naziri vəzifəsinə təyin edilən Hüseyn Rəsulbəyov ölkəmizin rabitə xidmətlərinin inkişafında, şəhər və kəndlərin telefonlaşdırılmasında, radio-televiziyanın maddi-texniki bazasının möhkəmləndirilməsində müstəsna xidmətlər göstərib.

# Rusiyada II Dünya müharibəsində həlak olan azərbaycanlıların cəsədi tapılıb

Rusiyanın Braynsk vilayətində aparılan axtarışlar zamanı II Dünya müharibəsi zamanı cəbhədə həlak olan azərbaycanlıların cəsədi tapılıb.

Tapılan cəsədlərdən biri Azərbaycanın Hacıqabul rayon sakini Böyükağa Nuhi oğlu Mehdiyevə aiddir.

Bryanks vilayətinin rəhbərliyi və Moskvadakı "Azərbaycan" Cəmiyyəti tərəfindən B.Mehdiyevin Azərbaycanda yaşayan qohumları tapılıb. Onların iştirakı ilə azərbaycanlı əsgərin cəsədinin qalıqları Bryanskdakı faşizmlə müharibədə həlak olan insanların məzarlarının olduğu Fəxri xiyabanda təntənəli şəkildə dəfn olunub.



Qeyd edək ki, B.Mehdiyev Smolenskin azad olunmasında göstərdiyi qəhrəmanlığa görə, "Qırmızı döyüş bayrağı ordeni" ilə təltif olunub. Daha sonra o, Bryanskın müdafiəsi zamanı qəhrəmancasına həlak olub.

Rusiya Müdafiə Nazirliyinin arxivinə verilən sorğu zamanı məlum olub ki, B.Mehdiyev 1943-cü ilin martında almanların nəzarətində olan əraziyə keçərək çoxlu sayda düşməni məhv edib və faşistlərin əks hücumunun qarşısını tək alıb. "Bryansk cəbhəsi" axtarış bölməsinin rəhbəri Maksim Volkov isə açıqlamasında bildirib ki, bu igidliyə görə bölük komandiri ona "Şücaətə görə" medalını təqdim edib.

"Lakin diviziya komandiri isə təqdimatı dəyişdirərək Mehdiyevi "Qırmızı ulduz" ordeninə layiq görüb. 50-ci ordunun komandanlığı isə qərara alıb ki, bu cür qəhrəmanlığa görə bu medallar azdır. Ona görə də Mehdiyevə "Qırmızı döyüş bayrağı" ordeni verilib. Məhz bu ordenin sayəsində axtarışlar zamanı cəsədin Mehdiyevə məxsusluğu müəyyən edilib", – deyə "Bryansk cəbhəsi" axtarış bölməsinin rəhbəri Maksim Volkov vurğulayıb.

Xatırladaq ki, azərbaycanlı əsgərin dəfn mərasimində Bryansk vilayətinin qubernator müavini Aleksandr Korobko, Bryansk vilayət Dumasının komitə sədrləri Rusiyanın milli qəhrəmanı Aleksandr Postayalko və Lyudmila Juravlyova, Böyükağa Mehdiyevin Azərbaycanda yaşayan qohumları, Moskvadakı "Azərbaycan" diaspor cəmiyyətinin üzvləri və yerli diaspor fəalları iştirak ediblər.

Daha sonra Böyükağa Mehdiyevin axtarışlar zamanı tapılan şəxsi əşyaları və "Qırmızı döyüş bayrağı ordeni" onun Azərbaycandan gələn qohumlarına təqdim olunub.

# Respublikamızda sosial müdafiə sahəsi yeni inkişaf mərhələsindədir

Respublikamızda sosial proqramlar, o cümlədən veteranlara qayğı səviyyəsində həyata keçirilən tədbirlər ardıcıl və məqsədyönlü siyasətdir. Hazırda bu sahədə ölkədə bir çox uzunmüddətli xarakter daşıyan proqramlar həyata keçirilir.

Azərbaycan respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də yerli jurnalistlərlə ilin yekunları ilə bağlı geniş müsahibəsində əhalinin, o cümlədən veteranların sosial müdafiəsinə geniş yer vermişdir. Prezidentimiz müsahibəsində, sosial qayğıya ehtiyacı olan, xalq arasında vətəndaşlıq borcunu, qabiliyyət, bacarıq, bilik və qüvvəsini, sağlamlığını sərf etmiş veteranlara qayğı və diqqəti nəinki məmurların, həm də hər kəsin qarşısına bir vəzifə kimi qoyulmuşdu. Bu siyasət Prezidentin hər il qəbul etdiyi sərəncam və qərarlarda da öz əksini tapır. Veteranların bir çoxuna Prezident təqaüdü verilməsi, onlara maddi köməklik göstərilməsi, mənzil və nəqliyyat vasitələri ilə təmin edilməsi, pensiyaların, minimum əmək haqqının artırılması problemli kreditlərin həlli bu qayğı və diqqətin bariz göstəricisidir.

Prezidentimiz müsahibəsində bildirmişdir ki: "Hətta böhranlı illərdə biz sosial sahəyə nəzərdə tutulan vəsaiti azaltmamışıq. Bu, siyasətimizin əsas qollardır. İşimizin məqsədində Azərbaycan vətəndaşının maraqları dayanır. Bunun üçün... vətəndaşların sosial təminatı yaxşılaşdırılmalıdır".

Prezident daha sonra qeyd etmişdir ki: "Maaşların artırılması, pensiyaların, sosial müavinətlərin, tələbələrin təqaüdlərinin, yeni, bütün sosial sahədə olan məsələlər kompleks şəkildə öz həllini tapdı. Müavinətlər orta hesabla 50 faiz, yaxud da 2 dəfə, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı.".

Prezident əminliyini bildirdi ki: "gələn il bu istiqamətdə də önəmli il olacaq. Biz məcburi köçkünlər üçün, şəhid ailələri, müharibə veteranları, əlillər üçün böyük sosial evlər paketi təqdim etmişik. Bu il 5 mindən çox ev və mənzil inşa edildi. Bir şəhər boyda layihə icra etdik. Təqribən 25-30 min nəfər bundan bəhrələnir, 800-ə yaxın şəhid ailəsi, müharibə əlili evlərlə təmin edilir. Ölkədə müharibədə həlak olmuş şəhidlərin ailələrinə dövlət tərəfindən evlər, mənzillər verilir. Artıq 7 mindən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər verildi. Minlərlə, təqribən 6 mindən çox müharibə əlilinə maşınlar verildi. Mən hesab edirəm ki, bu, ədalətlidir və ədalət hər yerdə olmalıdır, o cümlədən sosial ədalət. Ona görə hesab edirəm ki, sosial sahədə bu il yaddaqalan olub və gələn il imkan daxilində bu müsbət meyillər davam etdiriləcəkdir".

Dövlətin bu diqqət və qayğı sayəsində veteran hərəkatı ölkəmizin ictimai-siyasi həyatının ən fəal qüvvələrinin birinə çevrilib. Respublika Veteranlar Təşkilatı da bu qayğıya öz əməli işi ilə cavab verməyə səfərbərlənlənmişdir.

T.Babayev
Veteranların sosial müdafiəsi şöbəsinin müdiri

# Ağdamda Qarabağ müharibəsi əlilinə və şəhid atasına fərdi ev verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün respublikamızın bölgələrində inşa edilən fərdi evlərdən ikisi Ağdam rayonunda sahiblərinə təqdim edilib.





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu münasibətlə keçirilən mərasimlərdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin rayon şöbəsinin sədri Baxşeyiş Hətəmli çıxış edərək ölkəmizdə Qarabağ müharibəsi veteranlarının, əlillərin və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlərdən danışıblar. Bildirilib ki, ulu öndər Heydər Əliyev Qarabağ müharibəsi veteranlarına, əlillərə və şəhid ailələrinə həmişə diqqət və qayğı ilə yanaşır, onların problemlərinin həllinə çalışırdı. Ümummilli Liderin bu siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu qəbildən olan insanların həyat şəraitinin, güzəranının yaxşılaşdırılması üçün konkret tədbirlər görülür. Ağdam rayonunda altımərtəbəli, 54 mənzilli bina Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin istifadəsinə verilib. Bundan başqa, onlarla müharibə veteranı, əlil və şəhid ailəsi fərdi evlərlə və minik avtomobilləri ilə təmin olunub. 2019-cu ildə rayonda həmin kateqoriyadan olan vətəndaşlara 20 mənzilin verilməsi tutulub. Artıq həmin evlərdən 4-ü şəhid ailələrinə və müharibə əlillərinə təqdim edilib. Tezliklə 16 fərdi ev də sahiblərinə təqdim olunacaq.

Yeni fərdi yaşayış evi ilə təmin olunan şəhid atası Rəşid Əliyev və Qarabağ müharibəsi əlili Akif Hacıyev onların sosial müdafiəsinin gücləndirilməsinə göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Sonra mərasim iştirakçıları mənzillərdə yaradılan şəraitlə tanış olublar.

## "Sambek yüksəkliyi" Memorial Kompleksi Rostov vilayətinin faşist işğalından azad edilməsinin simvoludur



2020-ci il mayın 9-da, Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi münasibətilə 146-cı Azərbaycan atıcı diviziyası döyüşçülərinin şərəfinə ucaldılmış "Sambek yüksəkliyi" kompleksində hərbi-tarixi muzey açılacaq.

Bu barədə Rusiyanın Rostov vilayətinin qubernatoru Vasili Qolubyev Rusiya-Azərbaycan Regionlararası Forumunda çıxışında məlumat verib. O, Azərbaycan rəhbərliyini kompleksin açılışına dəvət edib.

"Sambek yüksəkliyi" Memorial Kompleksi Rostov vilayətinin faşist işğalından azad edilməsinin simvolu sayılır. Memorial döyüşlərdə qəhrəmancasına həlak olmuş əsgərlərin, o cümlədən 146-cı Azərbaycan Taqanrok atıcı diviziyası döyüşçülərinin şərəfinə ucaldılıb.

## 416-cı Taqanroq diviziyasının komandiri general-mayor Dmitri Mixayloviç Sızranov tərəfindən yazılan məktubdan

1943-cü ilin avqustunda Azərbaycan KP MK-ya 416-cı Taqanroq diviziyasının komandiri general-mayor Dmitri Mixayloviç Sızranov tərəfindən daxil olan məktubdan bir hissə...(Həmin məktubda azərbaycanlı kəşfiyyatçıların qəhrəmanlığından bəhs edilmişdir -Ş.M.)

"Искренне благодарим вас за заботу, которую вы проявляете повседневного нашей дивизии. Вновь присланное пополнение из молодых бойцов-азербайджанцев сделало дивизию еще более боеспособной.

Десять разведчиков - сынов Азербайджана проявили себя в сложных операциях. Разведчик Таир Мамедов из колхоза им. Азизбекова селения Зирем Шахбузского района.

Нахичеванской АССР, в одной из разведок первым ворвался в траншею противника и в рукопашном бою ловким ударом нока прикончил фашистского гада. Отважный разведчик награжден медалью "За отвагу".



Героической подвиг совершили братья Алинаги и Алиастан Бунятовы из Агджабединского района. Они уничтожили более десятка гитлоревцев огнем метко брошенных гранат. В этой операции Алинаги был тяжело ранен. Алиастан вынес родного брата под градом вражеских пуль. Умирая Алинаги обратился к своим боевым товарищам и брату : "Передайте моей матери, что я честно бился с врагом и умер за нащу Родину".

Алинаги Бунятов умер смертью храбрых. "

AZƏRBAYCAN VETERANI

# "Min nəfərdən cəmi 200-ü döyüşdən sağ çıxdı"

Veteran kəşfiyyatçı İkinci Dünya Müharibəsinin dəhşətlərini anladır: "Onlar Kerç boğazından keçərkən alman təyyarələrinin bombardmanına məruz qaldılar və gəminin bütün heyəti suya qərq oldu"...

İkinci Dünya Müharibəsi başlayandan bir il sonra faşist Almaniyasının lideri Adolf Hitler SSRİ-yə qarşı müharibənin qaçılmaz olduğunu bəyan etdi. Bundan sonra SSRİ-nin işğal edilməsi üçün hazırlanan "Barbarossa" adlı yeni planda müəyyən dəyişikliklər aparıldı və Hitler 17 iyun 1941-ci ildə SSRİ-



yə qarşı 22 iyun tarixində müharibəyə başlamaq əmrini verdi. Beləliklə 22 iyun səhər saat 03:15-də "Barbarossa" əməliyyatına uyğun olaraq Alman qoşunları SSRİ ərazisinə soxuldu.

Müharibənin ilk günlərində Azərbaycanda 4 mindən çox oğlan və qız cəbhəyə yollanmaq üçün hərbi komissarlıqlara könüllü olaraq müraciət etdi. Avqust ayına qədər isə təxminən 123 min nəfər xalq qoşunu dəstələrinə yazıldı.

Sinəsini bəzəyən orden və medallar Qurban Bağırovun uzun və şərəfli döyüş yolu keçməsindən xəbər verir.

Həmin vaxt Lənkəran Rayon Hərbi Komissarlığından 3725 nəfər yola salınıb. Qeyd edək ki, həmin dövrdə Lənkəran Hərbi Komissarlığından yola salınanlar Astara, Lerik və Masallı rayonundan olan vətəndaşlar olub.

Lənkərandan müharibəyə gedənlərdən biri də hazırda Lənkəran şəhəri Kələntərlilər küçəsində yaşayan, 93 yaşlı Bağırov Qurban Əliheydər oğlu olub. O, 23 iyun 1923-cü ildə Lənkəran şəhərində anadan olub. Lənkəran Pedaqoji Texnikumunu bitirəndən sonra, 1940-cı ildən Lənkəranın Göyşaban kəndində ibtidai sinif müəllimi işləməyə başlayıb.

"1941-ci il iyunun 22-si idi. Səhər tezdən hamı şəhərin mərkəzi meydanına yığışmışdı. Doğum günümə də bir gün qalmışdı. O vaxt şəhərdə bir radio var idi, ordan bütün xəbərləri eşidirdik, və hamımız həyəcan və hiddətlə faşist qoşunlarının vətənimizə soxulması xəbərini aldıq", — deyir Qurban baba.

Bütün cavanlar kimi, o da hərbi komissarlığa yollanır: "Amma ordan bildirdilər ki, mən müəllim işlədiyim üçün orduya aparmırlar. Nəysə, elə həmin əhval-ruhiyyə ilə qayıtdım işə. Amma 1942-ci ilin oktyabrında məni Hərbi komissarlıqdan çağırdılar. Mən gəlib evdə valideynlərimlə sağollaşıb getdim".

Əvvəlcə onları Biləcəriyə, oradan da Rusiyanın Oryol şəhərinə aparırlar: "Səhəri gün bizi orada qoşunlara böldülər. Mən kəşfiyyat rotasına düşdüm. Düzü əvvəlcə bərk qorxdum, çünki mən ora çatanda bizim qoşunlar Oryol istiqamətində hücuma keçdilər, özü də təxminən mindən yuxarı döyüşçü ilə. Amma faşistlərin möhkəm müqaviməti ilə üzləşdilər. Geri çəkiləndə isə xeyli itki verdilər".

Qurban kişi 1942-ci ildən 1944-cü ilin əvvəlinə kimi döyüşlərdə iştirak edib.

"200 nəfər adam sağ qalmışdı. Mən də bunu görüb qorxdum. Düzü, ölümdən elə də yox, amma döyüşdə özümü necə aparacağımdan qorxurdum. Həm də geri qayıdan yaralılar arasında qonşumuz Orucu da gördüm", — müsahibimiz danışır.

O, 1942-ci ildən 1944-cü ilin əvvəlinə kimi döyüşlərdə iştirak edib: "Biz yenidən toplandıq və faşistlərə qarşı hücuma keçdik. Bizim hissə Oryolu işğaldan azad edib Voronejə qədər irəlilədi və Voroneji də işğaldan azad etdik. Mən 1943-cü ilin sonunda rotamızla bərabər hücuma keçərkən, dekabr ayında bərk xəstələndim. Amma rota komandirimə bildirmək istəmirdim. Çox gizlətsəm də, axırda — 1944-cü ilin əvvəlində məni ciyərlərimdə pnevmaniya xəstəliyi ilə Penza şəhərinə hərbi hospitala müalicə olunmağa göndərdilər".

Penzada 3 ay müalicə olunduqdan sonra oun evə göndərirlər: "3 ay müddətinə istirahət etməyimi məsləhət gördülər. 3 ay bitdikdən dərhal sonra özüm yenidən yollandım Bakıya Respublika Hərbi Komissarlığına. Komissarlıqdan isə məni Bakıda hərbi hissələrdən birinə göndərdilər, orda artilleriya qoşunlarında bir müddət təlim keçəndən sonra məni Gürcüstan SSR-in Suxumi şəhərində yerləşən hərbi hissəyə göndərdilər".

Müharibənin sonuna kimi Suxumidə xidmət edir: "Özüm dəfələrlə cəbhəyə getmək istədiyimi komandirlərimə bildirsəm də, komandanlıq məni oradan heç bir yerə göndərmədi. 1945-ci ilin may ayında məni yenidən Azərbaycana göndərdilər — Ələt qəsəbəsindəki hərbi hissəyə. Üstündən 3-4 gün keçdi və müharibənin bitdiyi xəbərini eşitdik. O vaxtın qanunlarına əsasən, öncə müəllimləri və 50 yaşdan yuxarı döyüşçüləri ordudan tərxis edirdilər. Mən də müəllim olduğum üçün ordudan ilk tərxis olunanlardan oldum".

Qurban dayı özü ilə bərabər orduya gedənləri də xatırlayır: "Mənimlə bərabər dostum Şahverdiyev Abbas və qardaşı Şahverdiyev Cavad da müharibəyə getdi. Onlar Leninqrad cəbhəsinə göndərildilər. Lakin heç biri müharibədən sağ qayıtmadı. Daha sonra İmanqulu var idi. O da gəmi ilə Kerç boğazından keçərkən alman təyyarələrinin bombardmanına məruz qalır və gəminin heyəti ilə birgə batıb.




Qonşumuz Səlimov Əliağa və qardaşı Səlimov Yəhya Rostov ətrafında gedən döyüşlərdə həlak oldular".

"Bircə bizim hərbi hissədə avtoqarajın rəisi Kiçikbazarlı Nəcəfqulu sağ qalanlardan oldu. Qalan heç kim yadımda deyil", — deyir...

Qeyd edək ki, 1941-45-ci illər Böyük Vətən Müharibəsində Lənkəran Hərbi Komissarlığından cəbhəyə gedən azərbaycanlılardan 2458 nəfəri həlak olub, 1294 nəfəri isə itkin düşüb.

Rahim Zakiroğlu

# Berlinə qədər döyüşən azərbaycanlı: "Bu vəhşiliyi heç faşistlərdən görmədim"

"Şəhərdə küçə davaları gedirdi, açıq döyüş yox idi. Komandirin əmri ilə bir-birimizdən aralı gedirdik ki, atəş açılanda çox adama dəyməsin. Küçənin ortasında güllənin hardan gəlib-hara dəyəcəyini bilmək olmurdu"...

Öz ölüm xəbərini bir il sonra eşidən döyüşçü - Prezident ona nə sürpriz etdi?

Bu müharibənin tarix ədəbiyyatında "Vətən müharibəsi" adlanan 1941-1945-ci illər dövründə Azərbaycan xalqı, istər ön, istərsə də arxa cəbhədə misilsiz döyüş və əmək rəşadəti göstərib. 640 min azərbaycanlı cəbhəyə səfərbər olub. Azərbaycanlılardan ibarət 416-cı, 271-ci, 77-ci, və 223-cü milli diviziyalar təşkil edilib.



Bu diviziyalar Qafqaz dağlarından Berlinədək şanlı döyüş yolu keçərək qəhrəmanlıqları ilə xalqımızın hərb tarixinə yeni şərəfli sətirlər yazıb. Bu şanlı qələbənin canlı şahidlərinin sayı, təəssüflər olsun ki, ildən-ilə azalmaqdadır.

Faşist Almaniyasının təslim olmasını Berlində bayram edənlərdən biri də Daşkəsən rayonunun, yaşayan yeganə "Vətən müharibəsi" veteranı İdris Əhmədovdur. O, 1925-ci ildə Ermənistanın Amasiya rayonunun Düzkənd kəndində anadan olub. 18 yaşına çatanda digər soydaşlarımız kimi vətənin müdafiəsinə yollanıb.

Qori şəhərində hərbi hazırlıq keçən İdris babanın döyüş yolu Berlinə qədər uzanıb

İlk olaraq Qori şəhərinə gətirilərək, hərbi hazırlığı öyrənib. Bir müddət sonra isə 416 Taqanroq diviziyasının tərkibinə daxil olaraq Berlinədək döyüş yolu keçib. Yaşla əlaqədar yaddaş və eşitmə zəifliyi olsa da, veteranla söhbətimiz, onun ailə üzvlərinin köməyi ilə baş tutdu.

Müharibə zamanı "PTR" (tank əleyhinə silah) silahından, Berlinin alınmasında isə karabindən istifadə etdiyini deyir İdris Əhmədov. Berlin şəhərində gedən küçə döyüşləri getdiyini, hər ev uğrunda mübarizə aparıldığını, şəhəri qarış-qarış ələ keçirdiklərini nəql edir.

"Berlində küçə davaları gedirdi, açıq döyüş yoxuydu. Komandirin əmri ilə bir-birimizdən aralı gedirdik ki, atəş açılanda çox adama dəyməsin. Küçənin ortasında güllənin hardan gəlib-hara dəyəcəyini bilmək olmurdu", —deyir İdris baba.

9 mayda Almaniyanın təslim olmasına baxmayaraq, hələ bir müddət şəhərdə döyüşlərin getdiyini deyən müsahibimizin sözlərinə görə, döyüşlər qurtardıqdan sonra Belarusa qədər günlərlə piyada yol qət ediblər: "Hər saatda bir dəfə dayanırdıq. 5 dəqiqə uzanaraq ayaqlarımızı yuxarı qaldırıb dincəlirdik ki, ayağa yığılan qan bədəndə hərəkət eləsin. Çox vaxt beyin yatsa da, ayaqlar yeriyirdi".

1947-ci ilə kimi Belarusda saxlanıldıqdan sonra tərxis olunaraq Amasiyaya qayıdıb. Sovxozda çoban, sonra isə baş çoban kimi fəaliyyət göstərib. Müharibədə gördüyü dəhşətləri bir də 80-ci illərin sonlarında görmək qismətinə düşüb İdris Əhmədovun.

"1988-ci ildə ermənilər azərbaycanlıları sıxışdırmağa başladılar. Əvvəl gəlib mal-qaranı əlimizdən aldılar, sonra kənddə bir neçə nəfəri öldürmək istədilər. Yerevandan böyüklər gəldilər ki, "ay türklər, getməyin, mal-heyvan verək, yaşayın". Onlar gedəndən sonra ermənilər kəndə hücum elədilər. Neçə adamı öldürmək istədilər", —deyir.

İdris kişi hazırda kiçik oğlu Gəray və ailəsi ilə birgə Yuxarı Daşkəsən kəndində yaşayır.

İdris babanın sözlərinə görə, həmin vaxt Ermənistanda zəlzələ olduğu üçün, ermənilərin başları qarışıb: "Yoxsa salamat adam buraxmayacaqdılar. Nə qədər adamın yolda qabağını kəsib hər şeyini əlindən aldılar. Heç o vaxt almanlar tutduqları yerlərin əhalisi ilə belə davranmırdılar".

Qaçqınlıq vaxtı gəlib Daşkəsən rayonunun Yuxarı Daşkəsən kəndində məskunlaşıblar. 4 oğlu, üç qızı olub İdris kişinin. Oğlanlarından biri cavan vaxtı dünyasını dəyişib. 2008-ci ildə həyat yoldaşını da itirib. Hazırda kiçik oğlu Gəray və ailəsi ilə birgə yaşayır.

İlham Mustafa

AZƏRBAYCAN VETERANI

23-24 (141-142) 30 dekabr 2019-cu il

# Tarixə qızıl xətlə yazılan gün-9 may

*Xalqımızın ümummilli lideri Heydər Əliyev veteranlara həmişə xüsusi diqqət və qayğı göstərirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük tarixi şəxsiyyətin siyasi kursunu bu istiqamətdə də uğurla davam etdirir.*

Səməd Vurğun böyük ilhamla, böyük qürurla yazmışdır:

Yazılsın tarixə bir qızıl xətlə
45-ci ilin 9 may günü...

75 ildir bu tarixi böyük coşqu ilə, böyük ehtiramla qeyd edirik. Böyük Vətən müharibəsinin ağrı-acılarını hamımız yaşamışıq. Birimizin babası müharibəyə gedib qayıtmayıb, birimizin dayısı, birimizin əmisi. Qayıtmayanlar haqqında xatirələr eşidə-eşidə böyümüşük, eşitdiklərimizin balalarımıza danışmışıq, onlar da öz övladlarına danışacaqlar.

İkinci Dünya müharibəsində qazanılan qələbədən illər keçsə də, həmin müharibə haqqında, Azərbaycanın bu müharibədə iştirakından, müharibəyə gedənlərdən, iştirakçılardan həmişə söhbət gedəcək,.. Qəhrəmanlarından da, naməlum talelərdən də danışılacaq...

Bakı şəhərinin Qaradağ rayonunda bir nəfər Böyük Vətən müharibəsi iştirakçısı yaşayır - Yekaterina Alekseyevna. 98 yaşlı veteranın yaddaşında qalanlar da tarixdir. O, tarixi vaxtaşırı həvəslə dinləyirik.

Yekaterina Alekseyevna 07.11.1921-ci ildə Rusiyanın Ulyanovski vilayətində anadan olub. Müharibə başlayan kimi hərbi komissarlığa gedir və cəbhəyə getmək istədiyini bildirir. Böyük bir döyüş yolu keçir, rabitəçi tibb bacısı kimi üzərinə düşən hərbi vəzifələri layiqincə yerinə yetirir. Leninqrad şəhərinin müdafiəsində iştirak edir. Məşhur



Krakov əməliyyatı zamanı Oqanyok kəşfiyyat qrupunun tərkibində döyüşür. Müharibə qurtardıqdan evə qayıdan Yekaterina Alekseyevna bir müddət öz vilayətində işləyir.

1950-ci ildə o, Azərbaycana gəlir və həmişəlik Azərbaycanda qalır. Ondan Azərbaycanı seçəndə nəyi nəzərə aldınız?- sualına cavab olaraq deyib:-Atam Azərbaycanlılar haqqında həmişə xoş sözlər deyərdi. Azərbaycanda məskunlaşdıqdan sonra, neftçi kimi işə başlayır.

Bakı şəhərinin Qaradağ rayonunun Qobustan qəsəbəsində yaşayan Yekaterina Alekseyevna əmək cəbhəsində də fərqlənənlər sırasında olub. Böyük Vətən Müharibəsində Qələbənin 50 illiyinə həsr olunmuş rayon miqyaslı təntənədə bir jurnalist ondan soruşur ki, 9 may günü hansı hissləri keçirdiniz. O, bir qədər qürurla –qələbə qazanılıb. Bir qədər qəhərli-minlərlə əsgər və zabitimiz həlak olub, deyir...Qələbə hissləri yaşadıq, o hissləri indi də yaşayırıq, son nəfəsimə qədər də yaşayacam.

Bu hissləri ömrünün 98-ci ilində də yaşayır Yekaterina Alekseyevna, indi bir qədər kövrəkliklə: "Kimlər gəldi, kimlər getdi bu dünyadan, bu dünyadan" deyimlər nə qədər haqlıdır.

Yekaterina Alekseyevna ilə vidalaşanda dedik: Qələbənin 75-ci ildönümündə görüşənədək...

Əli Məmmədov
Qaradağ rayon Veteranlar
Təşkilatının sədri

# Xalqımızın igid oğullarından İsmayıl Əbdürrəhman oğlu İsmayılov

"Qırmızı Ulduz" ordeni İsmayılov İsmayıl Əbdürrəhman oğlu 21 dekabr 1916-cı ildə Qubadlı rayonunun Əliquluuşağı kəndində anadan olmuşdur. 1933-cü ildə orta məktəbi bitirmişdir. Həmin il Şuşa şəhərində təhsilini davam etdirmiş.1937-ci ildə təhsili bitirdikdən sonra İsmayılov müharibə başlayana qədər Qubadlı rayonunda məktəblərdə müəllim işləmişdir. Həmin dövrdə rayon sakinləri onu igid, qorxmaz və ziyalı bir insan kimi tanımışlar.

İsmayıl İsmayılov BVM başlananda könüllü olaraq cəbhəyə yola düşmüşdür. İlk vaxtlar Sovet ordusunun tərkibində İranda olmuşdur, orada hərbi təlimlər keçdikdən sonra kiçik leytenant kimi ön cəbhəyə yola düşmüşdür.

Sovet ordusunun 24-cü atıcı diviziyasının 274-cü atıcı alayının 4-cü atıcı rotasının vzvod komandiri olan leytenant İsmayıl İsmayılov cəbhənin müxtəlif istiqamətlərində qəhrəmanlıqla vuruşmuşdur. İsmayılov göstərdiyi qəhrəmanlıqlara görə dəfələrlə mükafatlandırılmışdır. 14 fevral 1945-ci ildə "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişdir.

5 mart 1945-ci ildə leytenant İsmayılov Slovakiyanın azad edilməsi uğrunda gedən döyüşlərdə Makulaş şəhəri yaxınlığındakı Poludzka kəndinin ərazisində ağır yaralanmışdır. O, 66-cı Tibbi sanitar Batalyonuna aparılmasına baxmayaraq aldığı güllə yarasından həlak olmuşdur. Leytenant İsmayılov Slovakiya Respublikasında Sovet Hərbi qəbiristanlığında dəfn olunmuşdur.

"Qırmızı Ulduz" ordenli leytenant İ.İsmayılovu doğma el obasında hər zaman xatırlanmalıdır. Yaxınları onun əziz xatirəsini hər zaman yad edirlər.



İsmayı İsmayılov müharibədən tez-tez məktublar göndərər, ailəsinə, dostlarına və sevgilisinə müharibədə olanları anladar, qayıtdıqdan sonra görəcək işlər haqqında xəyallarını paylaşardı. Onun bu günə qədər gəlib çatan yeganə şəklini də bu yaxınlarda rəhmətə gedən sevdiyi qadın qoruyub saxlamışdır. Ən yaxın dostu həmkəndlisi uzun illər Əliquluuşağı kənd məktəbinin direktoru işləmiş İlyas Səfərov onun cəbhədəki igidlikləri haqqında ürək dolusu danışardı...

İkinci Dünya müharibəsi hər bir ailədə acı ilə yadda qaldı. Bizlərdən yaxınlarımızı aldı... amma qəhrəmanlarımızın heç biri unudulmadı, əbədiyaşarlıq qazandı. Onların əziz xatirəsi daima qəlbimizdə yaşayacaqdır.

# Şəhid ailələrinə müəllifin töhfəsi

"Vətənin müdafiəsində iştirak etmiş, qəhrəmanlıq, şücaət göstərmiş şəhid ailələrinə, müharibə əlillərinə, veteranlara diqqət və qayğı göstərmək Dövlətimizin ən ümdə vəzifələrindən biridir."

İlham Əliyev




"Torpaq, əgər uğrunda ölən varsa vətəndir"- deyiblər. Onların can və qanı bahasına bu vətən yaşayır və yaşayacaqdır. Qarabağ savaşında hər yerdə oduğu kimi Şirvan şəhərində də yüzdən artıq şəhid var. Onların xatirəsi əbədiləşdirilib. Adlarına küçə və məktəblər verilib, yaşadıqları binaya "Xatirə lövhəsi" vurulub, adlarına "xatirə bulaqları" tikilib, ailələrinə mənzillər verilib, sosial yardımlar edilib və bu işlər bu gündə davam edir.

Jurnalist Nazim Nəsirovun (Nəsirli) bu yaxınlarda Bakı "Alatoran Yayınları" nəşriyyatı tərəfindən çap olunmuş 150 səhifəlik



"Şirvan Şəhidləri" kitabı da şəhidlərin əziz xatirəsinə həsr olunmuşdur. Oxuculara təqdim olunan bu kitab jurnalist Nazim Nəsirlinin böyk zəhməti bahasına başa gəlib və müəllifin böyüyüb boya-başa çatdığı şəhərin qəhrəmanları haqqında qısa oçerklər yazılaraq kitab şəklində tərtib olunub. Bu kitab vətən qarşısında borc hissindən qaynaqlanan bir əməkdir.

Müəllifin öz hesabına çap olunmuş kitabında ümumilikdə 131 şəhid və itkinlərimiz barədə məlumat verilib. N.Nəsirli böyük zəhmət bahasına başa gətirdiyi əsərini bir qrup şəhid ailələrinə və kitabxanalara, eləcə də Şirvan şəhər müharibə, əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına hədiyyə etmişdir.

Vətən uğrunda can qoyan qəhrəmanlarımız unudulmayacaq, onların əziz xatirəsini əbədi yaşayacaqdır...

***Musaxan Heydərli***
***AJB-nin üzvü,***
***"İşıq" qəzetinin əməkdaşı***

# Basqalda Kamal Qasımovun xatirəsinə sərgi açılıb

***Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzi və "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun təşkilatçılığı ilə Qoruğun sərgi zalında "Kamal Qasımov - 110" sərgisi təşkil olunub və seminar keçirilib. Bu tədbirlər Böyük Vətən müharibəsi qəhrəmanı, basqallı vətənpərvər Kamal xan Ağarəzi xan oğlu Qasımxanlının (Kamal Qasımov-1909-1941) anadan olmasının 110 illiyinə həsr edilib.***

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirə Kamal Qasımovun nəslinin nümayəndələri, AMEA Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, tarixçi Şəfa Mövsümov, İsmayıllı Rayon İcra Hakimiyyətinin Basqal qəsəbəsi üzrə nümayəndəsi Novruz Əsədov, "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun əməkdaşları, basqallı ziyalılar qatılıblar.



"Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli seminarda çıxış edərək Kamal Qasımovun keçdiyi həyat yolundan, ikinci dünya savaşında göstərdiyi qəhrəmanlığından, haqqında çəkilən "Vətən oğlu" filmindən danışıb.

F.Xəlilli Kamal Qasımovun qardaşı Mahmudun oğlu Xanlar Qasımxanlının Qoruğa hədiyyə etdiyi, 1942-ci ildə on min nüsxə ilə çap olunan "Kamal Qasımov" plakatını bərpa etdirdiklərini və sərgidə nümayiş olunacağını qeyd edib. O, Kamal Qasımovun atası, görkəmli pedaqoq Ağarəzi xan Qasımxanlının oğluna həsr etdiyi "Şəxsi tənqid" romanını yazmasından, romanın indiyə qədər nəşr etdirməməsindən, Qoruğun həmin romanı nəşr üçün hazırlamasından danışıb.



Fariz Xəlilli həmin romanın əlyazmasını iştirakçılara nümayiş etdirib və Xanlar Qasımxanlıya romanı Qoruğa təqdim etdiyi üçün minnətdarlıq edib.

Rayon icra hakimiyyətinin Basqal qəsəbəsi üzrə nümayəndəsi Novruz Əsədov Kamal Qasımov haqqında Sovet dövründə yazılan əsərlərdən, çəkilmiş filmlərdən danışıb. Şair və yazıçıların Kamal Qasımov haqqında yazılarından sitatlar gətirib. Kamal Qasımovun xatirəsinin Basqalda əbədiləşdirilməsi üçün təklifləri topladıqlarını bildirib.

Tədbirdə iştirak edən qohumu Gülnarə Əliyeva yaşlı nəsillərin Kamal Qasımov haqqında xatirələrini bölüşüb.

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, tarixçi Şəfa Mövsümov "Kamalın igidliyi: Basqaldan Pruta" mövzusunda məruzə edib. O bildirib ki, həmin dövrün mətbuatında Kamal Qasımovla bağlı çoxlu yazılar var. O, müharibənin əvvəlində üç gecə ərzində altı əsgərlə Cənub cəbhəsində üç körpü partladaraq düşməni çayın digər sahilində saxlayıb. Kamal Qasımov düşmənlə əlbəyaxa döyüşdə qəhrəmancasına həlak olub. Şəfa Mövsümov Kamal Qasımov haqqında biblioqrafiyanı da təqdim edib.



"Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun əməkdaşı Nuranə Feyzullayeva Yemelyan Bukovun Kamal Qasımov haqqında şeirini oxuyub, Sevinc Mirzəyeva isə Ağarəzi xan Qasımxanlının romanından Basqal haqqında qeydləri səsləndirib.

# Kamalın igidliyi : Basqaldan Pruta



1941-1945-ci illər müharibəsində qəhrəmanlıq göstərmiş azərbaycanlılardan biri də Kamal Ağarza oğlu Qasımovdur. O, 21 yanvar 1909-cu ildə indiki İsmayıllı rayonunun Basqal qəsəbəsində doğulub. Atası Ağarza Basqalda müəllimliklə və tərcüməçilik ilə məşğul idi. Ağarza müəllim Şirvan xanı Qasım xanın nəslindən idi. Kamalın



anası Xavər xanım idi. Qardaşı Fətəli Geodeziya İnstitutunu bitirib Moskvada mühəndis işləyirdi. Digər qardaşı Mahmud Hidrotexnika İnstitunu bitirmişdi və Bakıda mühəndis kimi çalışırdı. Kamal Qasımovun bacıları da ali təhsilli idilər. Şəfiqə indiki Bakı Dövlət Universitetində biologiya üzrə təhsil almışdı. Rəfiqə Pedaqoji İnstitutu, Rəbiyə isə Tibb İnstitutunu bitirmişdi və İsmayıllıda həkim işləyirdi. Vəfiqə və Amalya adlı bacıları da hələ azyaşlı idi. Qeyd edək ki, Şəfiqə və Rəfiqə Hava Hücumundan Müdafiə məktəbini bitirmişdilər.

Kamal Qasımov 1925-ci ildə Bakıda Lenin Fabriki nəzdində Fabrik-Zavod Məktəbinə daxil olur. 1927-ci ildə Sov. İKP-na üzv qəbul edilən Kamal 1928-ci ildə Yer Quruluşu Texnikumunun "Yerölçən" ixtisasına daxil olub.1931-ci ildə hərbi xidmətdən qayıtdıqdan sonra 1938-ci ildə Fəhlə-Kəndli Qırmızı Ordu sıralarına qəbul edilir. O, 1941-ci ildə müharibəyə yollanıb və Cənub cəbhəsində döyüşlərə atılır. E. Vilenski, 3 iyul 1942-ci ildə "Döyüşən ordu" qəzetində «Yeni tapşırıq» məqaləsində Rumıniya sahilində atışmalardan yazır. Unqenıda evdə gecələyən Kamal və onun dəstəsi saat 21:15-də döyüş yoldaşı Tsedin və digərləri ilə minaları qururlar. 22:00-da Moldaviya ərazisindəki Prut çayı üzərindəki körpünü partladırlar. Bu barədə «İzvestiə» qəzeti 4 iyul 1941-ci il sayında yazırdı : "O, müharibənin əvvəlində 3 gecə ərzində 6 qızılorduçu əsgər dəstəsi ilə Cənubi cəbhəsində komandirin əmrini yerinə yetirərək, üç körpü partladaraq çayın digər sahilində düşməni saxladı. Növbəti gün siyasi rəhbər Kamal Qasımov düşmənlə əlbəyaxa döyüşdə qəhrəmancasına həlak oldu".

Keçmiş ÜİK(b)P MK yanında Marks-Engels-Lenin İnstitutunun Azərbaycan filialının Partiya Tarixi İnstitutu tərəfindən 1942-ci ildə "Azərnəşr"də çap edilən "Siyasi rəhbər Kamal Qasımov" adlı kitabçada bu məlumatlara rast gəlmək olur.

Kamal Qasımovun igidliyinə aid şair Səməd



Vurğunun "Kommunist" qəzetində 10 iyul 1941-ci ildə «Qəhrəmanın hünəri» şeiri dərc edilmişdir.

Adını şeirlə mən alqışladım
Sərv ağacı kimi ucaldı başım,
Sənin dastanını belə başladım,
Sağ ol vətən oğlu, sağ ol qardaşım!
"Hazır ol!" söyləyən o mərd səsindən
İgidlər yanında ayağa qalxdı.
Alovlar dağıdan xoş nəfəsindən
Hər əsgər qəlbinə min qüvvət axdı...

Həmçinin Yemelyan Bukovunda Kamal Qasımova aid şeir həsr etmişdir.

1941-ci ilin 14 noyabrında Bakı kinostudiyası Kamal Qasımovun igidliyindən bəhs edən 23 dəqiqəlik «Vətən oğlu» filmini çəkmişdir. Filmin quruluşçu rejissoru Ağarza Quliyev, ssenari müəllifi Əbdürrəhman Minski, quruluşçu operator Muxtar Dadaşov, quruluşçu rəssam Basov və səs operatoru İlya Ozerski olmuşdur. İsmayıl Əfəndiyev Kamal Qasımov rolunu oynamışdır. Filmdə Əli Qurbanov, Əzizə Məmmədova, Əlisəttar Məlikov və Aleksandr Popov da çəkilmişlər. Qeyd edək ki, bu film kinonovelladır. Burada müharibə qəhrəmanı, siyasi rəhbər Kamal Qasımovun cəbhədə göstərdiyi hünərdən danışılır. Qeyd olunur ki, Azərbaycanlı döyüşçü K.Qasımov bir neçə döyüşçü ilə birgə çay üzərindəki strateji əhəmiyyətli üç körpünü partladır və düşmənin sahilə çıxmasını xeyli ləngidir. Onun döyüşçü yoldaşları ilə birgə əlbəyaxa döyüşdə qəhrəmancasına həlak olmasına toxunulur.

***Şəfa Mövsümov***
***AMEA Milli Azərbaycan Tarixi Muzeyi, elmi işçi***

# Укрепляются дружеские отношения между азербайджанским и русским народами и ветеранскими организациями!

Азербайджанские ветеранские организации развивают дружеские отношения между нашими народами, поддерживая государственную политику Азербайджана, укрепляя дружественные отношения между азербайджанским и русским народами. А также сотрудничают с ветеранскими организациями, выполняющими международные функции в Афганистане и других зарубежных странах.

28 ноября 2019 года, Московский музей афганской войны в Москве, Союза Ветеранов Афганистана Восточной Администрации Округа г. Москвы, Региональная общественная организация инвалидов, Перовский клуб инвалидов и Ветеранов войны в Афганистане «ДОЛГ», Фонд Инвалидов Воинов Интернационалистов Азербайджанской Республики и с участием лидеров ветеранов афганской войны из 16 региональных организаций в Москве, в связи с подготовкой к юбилейному мероприятию в канун 40-летия вторжения Советского Союза в Афганистан и будущему сотрудничеству между российскими и азербайджанскими ветеранами - одна из таких ссылок.

Выступит Председатель собрания, председатель правления Союза Ветеранов Афганистана ВАО г.Москвы, Председатель Региональной общественной организации инвалидов, Перовский клуб инвалидов и Ветеранов войны в Афганистане «ДОЛГ» и депутатом восточной администрации Москвы Савидов Андрей Николаевич. В начале мероприятия предложил минутой молчания почтить память воинов, погибших во время военной службы в Афганистане и других зарубежных странах, выполняя свой интернациональный долг.

Андрей Николаевич поприветствовал приглашенных гостей из Азербайджана, президента Фонда Инвалидов Воинов Интернационалистов Азербайджанской Республики, члена Азербайджанского общественного объединения ветеранов Афганистана Сарраф Оруджева и представителя фонда в России полковника в запасе Мухтара Фараджева.

Затем он дал слово президенту Фонда Инвалидов Воинов Интернационалистов Азербайджанской Республики Саррафу Оруджеву, который служил в 1986-1988 годах в Афганистане и покинул Афганистан 15 февраля 1988 года.

Сарраф Оруджов сообщил, что с 25 декабря 1979 года по 15 февраля 1989 года 40-я армия СССР находилась в Афганистане, проводя 416 крупномасштабных военных операций в течение 10 лет. Первая военная операция была успешно проведена «АЛЬФА» - «Штурмом-333» (уничтожение афганского руководства без разрушения дворца). Одной из крупнейших операций была операция «Магистраль» в 1987–1988 годах по отражению групп, препятствующих свободному перемещению сельскохозяйственной продукции.



За 10 лет в операции приняли участие 620 000 военнослужащих, представляющих 68 национальностей из бывших советских республик СССР. Кроме того, 525 000 сотрудников служили в Комитете государственной безопасности СССР и около 5 000 - в МВД СССР! Из них 547 000 участвовали в боевых действиях, а 21 000 - в гражданской трудовой деятельности. В Афганистане во время войны и военных операций 14 453 солдата были убиты, 292 пропали без вести и 5753 получили ранения с различными телесными повреждениями. Потери на этом не закончились. Даже после возвращения из Афганистана 3203 военнослужащих погибли в результате полученных ранений. Около 86 солдат и офицеров Советской Армии были награждены Героем Советского Союза (после смерти 25 из них), а около 200 000 были награждены различными военными орденами и медалями.

Сарраф Оруджов в своем выступлении дал подробную информацию об Азербайджане и деятельности Фонда Инвалидов Воинов Интернационалистов Азербайджанской Республики.

9000 азербайджанских солдат и офицеров из Азербайджана участвовали в афганской войне. 208 из них были убиты в бою, 450 остались инвалидами и 7 пропали без вести. Кроме того, более 1400 граждан Азербайджана служили на различных должностях.

В своей речи Сарраф Оруджов особенно отметил, что в Азербайджане проживают свыше 250 тысяч русских, украинцев, белорусов, молдаван и представителей других наций. Эти граждане находятся под постоянным вниманием и заботой Азербайджанского государства и народа.

Азербайджан всегда отличался толерантностью и религиозной терпимостью, отвечающей всем международным стандартам. «Азербайджан является многонациональным государством. В Азербайджане вместе с мусульманами проживают люди, исповедующие другие религии, Азербайджан, являющийся независимым демократическим государством, дает и гарантирует всем своим гражданам полную свободу, независимо от национальности, расы, религиозной и политической принадлежности».

Когда в центре Европы мы еще видим религиозную нетерпимость, в Азербайджане христиане, евреи, мусульмане живут при полном взаимоуважении и дружбе. Эти толерантность, межрелигиозный диалог и сотрудничество стало результатом проведения правильной и справедливой политики покойного Гейдара Алиева. Сегодня данна межрелигиозная политика продолжается Президентом Азербайджана Ильхам Алиевым.

В своих выступлениях Сарраф Оруджов также



сообщил, что более 1 миллиона человек (15% от общей численности населения) стали беженцами и вынужденными переселенцами в результате армянской военной агрессии в течении 1988-1993 и 2019 годах, 20% населения Азербайджана. Около 300 000 азербайджанцев, проживающих в Армении, были насильно депортированы, до последнего человека, со своей родины. В стране вынужденных переселенцев проживает около 700 тысяч азербайджанцев. Более 30 000 азербайджанцев были убиты, 50 000 инвалидов, 4853 пропали без вести, взяты в заложники и подвергнуты пытками. Их судьба до сих пор неизвестна.

Уже более 28 лет, мировое сообщество по-прежнему безразлично относится к этой несправедливой войне. В настоящее время наши соотечественники в Карабахе находятся каждый день под угрозой. Под пулями и снарядами стоят ужасные, захватывающие дни, и наши гражданские лица гибнут каждый день. Сегодня азербайджанские земли, оккупированные армянскими оккупантами, которые нарушают международные право и нормы, производят незаконные заселение армении, незаконным использованием природных ресурсов, разрушением и отчуждением исторических памятников, переименовывая города и села, поселения и исторические памятники.

Обращаясь к руководителям ветеранских организаций и ветеранам, Сарраф Оруджов сказал, что Карабах будет оставаться неотъемлемой частью того, что уже давно является исторической землей в Азербайджане. Мы не занимали чужую землю, мы пошли защищать свои земли. Пусть ваши друзья и семьи знают, что они не приходят в карабахский конфликт как ледяной солдат. Если ваши родственники перейдут и будут сражаться как бойцы в Карабахе, то они увидят себя перед отважными военными Азербайджана и нашими афганскими ветеранами.

В конце своего выступления Сарраф Оруджов также высоко оценил работу Региональной общественной организации инвалидов Перовский клуб инвалидов и Ветеранов войны в Афганистане «ДОЛГ» в московском регионе войны с семьями бойцов и ветеранов войны, погибших на войне в Афганистане.

Нам представляется на дальнейшее целесообразным восстановить добрые традиции взаимодействия с Азербайджано-Российской государствами, между азербайджано-русскими народами и общественно




ветеранскими организациями.

Считаем необходимым поддерживать и развивать далее контакты, встречи по проведению взаимных общественно-культурных мероприятий, спортивных соревнований, других дружеских акций и праздников в жизни двух народов и подержание укрепления развития делового сотрудничества с Региональной общественной организации инвалидов Перовского клуба инвалидов и Ветеранов войны в Афганистане «ДОЛГ» в области медицинской реабилитации инвалидов и ветеранов Афганистана.

Председатель совета матерей Петровского Клуба «ДОЛГ» Мальгинова Валентина Сергеевна, Заместитель председателя Региональной общественной организации инвалидов, Перовский клуб инвалидов и Ветеранов войны в Афганистане «ДОЛГ» Шибаев Андрей Вячеславович и Представитель Фонда "Инвалидов Воинов-интернационалистов" Азербайджанской Республики по России Мухтар Фараджев аплодировали Сарраф Оруджеву за его щедрое предложение.

На встрече было решено сотрудничать с Фондом "Инвалидов Воинов-интернационалистов" Азербайджанской Республики и Региональной Общественной Организации Петровского клуба инвалидов и ветеранов войны в Афганистане "ДОЛГ".

В конце заседания руководители обоих организаций в знак дружбы и братства между Азербайджанским и Российскими народами договорились о дальнейшем сотрудничестве между ветеранскими организациями с целью поддержки развивать дружеские отношения между нашими народами, поддерживая государственную политику Азербайджана и России и между народами, ветеранами для дальнейшего обеспечения обслуживания и лечения инвалидов и ветеранов войны в Афганистане.

За оказанную помощь семьям погибших ветеранов, ветеранам инвалидам в социальной сфере, в сфере медицины и в воспитании современной молодёжи в духе патриотизма, любви к родине и дружбе народов, за участие в самой большой операции в Афганистане "Магистраль" которая проводила 40-я армия СССР награждены медалью Сарраф Оруджов и Мухтар Фараджев, почетными грамотами, а также юбилейными медалями «Участники локального конфликта» и Задачи войны и празднование 30-й годовщины завершения военных операций, прекращения военных действий и вывода войск из Афганистана.

Затем выступил от имени "Фонда Инвалидов Воинов-Интернационалистов Азербайджанской Республики и от имени Азербайджанского общественного объединения ветеранов Афганистана Сарраф Оруджов. Он поблагодарил председателя правления Союза Ветеранов ВАО г.Москвы, председателя Региональной Общественной Организации Петровского клуба инвалидов и ветеранов войны в Афганистане "ДОЛГ", депутата ВАО г.Москвы Савидова Андрея Николаевича лично и членов его коллектива за тёплое, дружественное гостеприимство.

Руководители ветеранских организаций из Азербайджана, Президент Фонда Инвалидов Воинов-Интернационалистов Азербайджанской Республики и Председатель Региональной общественной организации инвалидов Перовский клуб инвалидов и Ветеранов войны в Афганистане «ДОЛГ» во время встречи согласовали вопросы дальнейшего сотрудничества между Азербайджаном и Россией и ветеранскими организациями наших стран для дальнейшего обеспечения обслуживания и лечения ветеранов.

Пресс-служба Фонда Инвалидов
Воинов-Интернационалистов
Азербайджанской Республики

AZƏRBAYCAN VETERANI

# Suya qərq olan divarlar

Danimarka sahilində Şimal Dənizindəki divar 1942-ci ildə Hitlerin əmrilə tikilib.

Hitlerin II Dünya Müharibəsi zamanı işğal etdiyi Atlantik sahili ölkələrindəki müttəfiq ordularının Avropaya girişinin qarşısını almaq üçün tikdirdiyi Atlantik divarı eyni adlı okeanda batmağa davam edir.

Hitlerin II Dünya Müharibəsi zamanı işğal etdiyi Atlantik sahili ölkələrindəki müttəfiq ordularının Avropaya girişinin qarşısını almaq üçün tikdirdiyi Atlantik divarının qalıqları...

Danimarkada Viqso sahilləri boyunca uzanan divarın bir hissəsi okean sularına qərq olub.

Qeyd edək ki, Danimarkada Şimal Dənizindəki divar 1942-ci ildə Hitlerin əmrilə tikilib. Plana görə, divarın uzunluğu 5 min kilometr olmalı idi.



# Hitlerin fəth edə bilmədiyi qüllə

940-cı ildə Hitlerin qoşunları Parisə daxil olmazdan əvvəl fransızlar qüllənin liftini xarab ediblər.

1887-ci il yanvarın 28-də Parisdə Eyfel qülləsinin tikintisinə başlanıb.

Fransa inqilabının 100 illik yubileyi münasibətilə tikilən Eyfel qülləsinə ildə 6 milyon turist baş çəkir. Hər il qülləni korroziyadan qorumaq üçün 60 ton boya işlədilir.

1940-cı ildə Hitlerin qoşunları Parisə daxil olmazdan əvvəl fransızlar qüllənin liftini xarab ediblər. Bu səbəbdən də alman əsgərləri qülləyə öz bayraqlarını asa bilməyiblər. “Hitler Fransanı fəth etsə də, Eyfel qülləsini fəth edə bilmədi” ifadəsi belə yaranıb.



## Berlində Hitlerin sadiq generalının gizli qəbri qazılıb



Berlində naməlum şəxslər nasist Almaniyasının generallarından biri, 1939-1942-ci illərdə İmperiya Təhlükəsizliyi Baş İdarəsinin rəisi, Adolf Hitlerin sadiq əlaltısı olmuş Reynhard Qeydrixin məzarını qazıblar.

Qeydrixin məzarı qazılsa da, onun nəşinin qalıqları toxunulmamış qalıb. Qeyd edək ki, Qeydrixin həmin qəbirdə dəfn edilməsi ilə bağlı məzarın üzərində hər hansı bildiriş yoxdur. Buna görə də cinayətkarların həmin məzarı məqsədli şəkildə qazdıqları güman edilir.

"Report" xatırladır ki, Qeydrix Üçüncü reyxin iyerarxiyasında böyük siyasi çəkiyə malik olub və yəhudilərin soyqırımı planının əsas müəlliflərindən biri idi. O, 4 iyun 1942-ci ildə Çexoslovakiyanın mühacirətdə olan hökumətinin təşkil etdiyi, Britaniyanın xüsusi xidmət orqanlarının iştirakı ilə hazırlanmış "Antropoid" əməliyyatı çərçivəsində, Praqada təşkil olunmuş sui-qəsd nəticəsində öldürülüb.

Buna cavabında Hitler Çexoslovakiyanın Lidiça kəndini yer üzündən silmək, sakinlərinin isə bir qismini öldürmək, bir qismini konslagerlərə göndərmək barədə əmr verib. Kənddə İkinci Dünya müharibəsinin ən böyük soyqırımlarından biri həyata keçirilib. Öldürülənlər arasında qadınlar, qocalar, uşaqlar da olub.

Reynhard Qeydrixə sui-qəsd xüsusi təlim görmüş 4 hərbçi, kəşfiyyatçı tərəfindən həyata keçirilib. Sonradan sui-qəsdçi kəşfiyyatçılardan biri külli miqdarda pul müqabilində öz yoldaşlarını nasistlərə satıb və onlar faşislərin keçirdiyi xüsusi əməliyyat zamanı öldürülüb. Satqın kəşfiyyatçı isə müharibə başa çatdıqdan sonra məhkəmə qarşına çıxarılaraq edam edilib.

İkinci Dünya Müharibəsindən sonra məşhur nasist xadimlərinin qəbirlərinin adını silmək barədə qərar qəbul edilib. Buna neonasistlərin həmin məzarları sitayiş yerlərinə çevrilmələri səbəb olub.

## Uğursuzluğa düçar olan ən böyük əməliyyat

Əməliyyat 1941-ci il 22 iyun tarixində 4,5 milyon nəfərlik alman ordusunun hücumu ilə başlayıb.

Bu gün faşist Almaniyasının rəhbəri Adolf Hitlerin Barbarossa əməliyyatını təsdiq etməsinin ildönümüdür. Sputnik Azərbaycan xəbər verir ki, Hitler 1940-cı il dekabrın 19-da əməliyyatın həyata keçirilməsini təsdiq edib.

Barbarossa əməliyyatı (alm. Unternehmen Barbarossa) — İkinci dünya müharibəsində Almaniyanın SSRİ-yə qarşı həyata keçirdiyi ildırımsürətli müharibə (alm.Blitzkrieg) planıdır. Əməliyyatın adı Müqəddəs Roma imperiyasının imperatoru I Fridrix Barbarossanın adından götürülüb.



Plan 1940-cı il iyulun 21-də general Fridrix Paulyusun rəhbərliyi altında hazırlanmağa başlanmış və həmin il 19 dekabrda Vermaxtın ali baş komandanı Adolf Hitlerin 21 nömrəli direktivi ilə təsdiq edilib. Plana görə 3 ay ərzində SSRİ-nin Avropa hissəsini tutmaq planlaşdırılırdı.

Əməliyyat 1941-ci il 22 iyun tarixində 4,5 milyon nəfərlik alman ordusunun hücumu ilə 2 900 km-lik SSRİ sərhədi boyunca icra edilməyə başlamış, bu hadisə tarixə ən böyük hücum əməliyyatı kimi daxil olmuşdu. Əməliyyata həmçinin 60 000 texnika və 750 000 at cəlb olunmuşdu.

**Əziz oxucular, “Azərbaycan Veteranı” qəzeti üçün abunə yazıla bilərsiniz!**
**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**
**Qeyd: Əziz və hörmətli oxucular, “Azərbaycan Veteranı” qəzetinə abunə olmaq üçün “Azərmətbuatyayımı” ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

## Allah rəhmət eləsin

**Respublika Veteranlar Təşkilatı və Cəlilabad rayon Veteranlar Təşkilatı II Dünya Müharibəsi veteranı Quliyev Fərəməz Musa oğlunun vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatı və Saatlı rayon Veteranlar Təşkilatı II Dünya Müharibəsi veteranı Səlimov Sarı Xanəhməd oğlunun vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatı və Qaradağ rayon Veteranlar Təşkilatı veteran Heybətov Əlimusa Əlisa oğlunun vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

*Baş redaktor*
*Ülvi İBRAHİMLİ*
*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*“Azərbaycan Veteranı” qəzeti.*
***VÖEN:** 1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu: 012** 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə “Azərbaycan Veteranı” qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və “Veteran Nəşriyyatı” mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*